# Dövlət bayrağımızı qaldıranlar hər cür ehtirama layiqdirlər

## 2022-ci ilin idman yekunlarına həsr olunmuş mərasimə sözardı

*Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

*... Keçən il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur... İdmançılarımız beynəlxalq yarışlarda 800-dən çox medal qazanmışlar, onlardan 300-ə yaxını qızıl medaldır. Doğrudan da, böyük nailiyyətdir. Çünki dünyada idman sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır. Ona görə hər il bu yüksək nəticələri göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Dövlət başçımızın 2022-ci ildə idman sahəsində qazandığımız uğurlarla bağlı çıxışını dinləyərkən yada düşən ilk məqam ulu öndər Heydər Əliyevin bu sahənin inkişafındakı misilsiz xidmətləri olur. Hamı bilir ki, Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə, digər sahələrdə olduğu kimi, idmanın inkişafına da böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü.**



Yadımızdadır, həmin illərdə ölkəmizdə bir çox idman kompleksləri, qurğuları, zalları tikilmiş, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. 1970-ci illərdə Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayı tikilmişdi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi.

Bütün bunları nəzərə alaraq, qətiyyətlə deyə bilərik ki, 2022-ci ilin idman yekunlarına həsr edilmiş təntənəli mərasimin məhz “Heydər Əliyev ili”ndə reallaşdırılmasını bu yubiley tədbirlərinin bir səhifəsi kimi qəbul etmək olar. Çünki ulu öndər idmançıların cəmiyyət həyatındakı rolunun artması, özlərinə layiqli yer tutmaları üçün əlindən gələni əsirgəməmişdir. Dövlətin idman siyasətinin həyata keçirilməsi üçün 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdı. Eləcə də, idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər qazanmaq və dünya şöhrətli idmançılar hazırlamaq üçün bu sahədə birbaşa məşğul olan qurumlar qarşısında konkret vəzifələr qoymuşdu. Prezident İlham Əliyev təkcə həmin siyasəti davam etdirmir, həm də ümummilli liderimizin bu sahədəki xidmətlərini dönə-dönə hamıya xatırladır.

Prezident İlham Əliyevin idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələrin ildən-ilə yaxşılaşması da təsdiqləyir. Bir vaxtlar maddi çətinliklər üzündən respublikamızı tərk etmiş çox sayda idmançı gənc geri qayıdaraq, respublikamızın idman şərəfini uca tutur, üçrəngli bayrağımızı göylərə qaldırır. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçımızın bu yarışları izləməsi, idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması da heç kəsin nəzərindən yayınmır.

Cənab Prezident yanvarın 9-dakı mərasimdə fəxrlə vurğuladı ki, ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə, son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir: “Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişlər. Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdu. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq, əlbəttə ki, böyük qələbədir, böyük nailiyyətimizdir”.

Dövlət başçımızın həmin çıxışında qabardılmalı, xüsusilə vurğulanmalı məqamlar çoxdur. Ancaq biz cəmi iki məsələni yada salmaq istəyirik. Birinci məsələ ölkədə yetişən gənc nəslin uğurlarının bilavasitə dövlət başçısı tərəfindən təqdir edilməsi idi. Prezident xatırlatdı ki, idman aləmində nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır və bu, bir önəmli məsələyə diqqətimizi çəkir – yəni, o mənada ki, burada da biz inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi elə bil ki, gənc idmançılara təhvil verilir: “Yəni, Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır”.

Prezidentin fikrincə, gənclərdə, uşaqlarda idmanla məşğul olmaq, görkəmli idmançılara oxşamaq həvəsi getdikcə daha da çoxalır. Biz bunu Azərbaycanın timsalında görmüşük ki, idmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq.

İkinci məsələ isə 30 il düşmən tapdağında qalmış, 2020-ci ildə əsarətdən azad edilmiş ərazilərimizdə idman tədbirlərinin keçirilməsi barədə söylənilənlər idi. Prezident xatırlatdı ki, düşmən tapdağından azad edilmiş ərazilərdə keçən il bir neçə beynəlxalq idman yarışı keçirilmişdir: “Bunun çox böyük tarixi əhəmiyyəti var. Çünki azad edilmiş ərazilər indi canlanır, həyat qayıdır, insanlar qayıdır. Bildiyiniz kimi, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlamışıq və o bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsinin çox böyük rəmzi mənası var. Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı keçirilmişdir. Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam etdirilməlidir”.

Biz isə xatırladırıq ki, dövlətimiz, azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılmasını nəzərdə tutur. Məsələn, Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda, onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Bununla bərabər olaraq, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Dövlət başçımız xatırlatdı ki. biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində – Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir.

Sonda demək istədiyimiz ondan ibarətdir ki, Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə, ölkəmizin dünya arenasında mövqeyi ildən-ilə möhkəmlənir. Bu isə dövlət başçımızın gənclərin fiziki hazırlığının yaxşılaşdırılması, yeni idman qurğularının istifadəyə verilməsi, idmançıların daha böyük uğurlara ruhlandırılması istiqamətində həyata keçirdiyi layihələrin nəticəsidir.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**